# “Türklüyün Azərbaycandakı müqəddəratı (1918-1920)” üzərinə bir dəyərləndirmə



Ceyhun Nəbi

Cümhuriyyət Siyasi Düşüncə Mərkəzinin sədri

**(əvvəli ötən sayımızda)**

***Hətta 1920-ci ilin mart ayında İran Azərbaycan Cümhuriyyətinin dövlət müstəqilliyini tanısa belə iki ilə yaxın bir müddət də göstərdiyi qeyri-səmimi davranışlarına axıra qədər sadiq qalmışdı.***

4-cü başlıq “Türk paşalarının kommunistlərlə ittifaqı ?” adlanır. Çox ciddi, həssas, düşündürücü, əsaslı şəkildə təhlil olunacaq başlıqdır. Müəllif mövzu içərisində Cümhuriyyətin Türkiyə tərəfindən Ruslara təslim edilməsi ilə bağlı sayıqlama iddialar günümüzdə də iki dövlət arasındakı türklük bağını zədələmək istəyənlər tərəfindən tarixi və siyasi ifadələrlə dilə gətirildiyini qeyd edir(2, 66). Əlbəttə ki, bu baxışların mövcud dönəmdə qabardılması Azərbaycan və Türkiyə arasında münasibətləri pozmağa çalışan, güvənsizlik yaratmaq istəyən müəyyən kəsimlərin marağında olduğunu inkar edə bilmərik. Bu səbəbdən siyasi anlamda çox zərərlidir. Tarixi anlamda isə müzakirə olunması, təhlil edilməsi narahatlıq yaratmamalıdır. Hər hansısa bir mövzu nə qədər gizli saxlanılırsa özü üçün şübhəli məqamlar yaradır. Toplumu bu məqam hər zaman düşündürür və bu səbəbdən insanlar tarixi həqiqət axtarışında olurlar. Ona görədə həmin dönəmin hadisələri, baş verənlər, tərəflərin mövqey və istəkləri olduğu kimi təqdim edilməlidir. Bu mövzunun obyektiv şəkildə araşdırılması isə müəllifin qeyd etdiyi kimi – Tarixdə baş vermiş bir hadisə tarixçilik üsuluna uyğun olaraq tək tərəfli qaynaqlardan araşdırıla bilməz. Çünki belə olsa sağlam və tərəfsiz bir nəticəyə varmaq olmaz(2,69-70). Mövzu araşdırılarkən mütləqdir ki, bu qaydalara əməl edilsin. İstər Azərbaycan üçün, istərsədə Türkiyə üçün çox ağır bir dönəmə təsadüf edən həmin dövr birtərəfli qayda da qiymətləndirilə və ya dəyərləndirilərsə obyektiv bir nəticəyə gəlmək olmaz. Azərbaycan Cümhuriyyətinin öz dövlət müstəqilliyini tanıtmaq və möykəmləndirmək istiqamətində fəaliyyəti ilə Türkiyənin istiqlaliyyət uğrunda mübarizəsini doğru şəkildə təhlil edib, uzlaşan və uzlaşmayan tərəflərini müəyyən etmək lazımdır.Türkiyə bolşeviklərlə yaxınlaşıb Antanta güclərinə qarşı mübarizəni təşkil edərkən, Azərbaycan Cümhuriyyəti isə Antanta tərəfindən dövlət müstəqilliyinin tanınmasına və müstəqilliyə qarşı ciddi təhdid olan bolşeviklərə qarşı mübarizəni təşkil etmək istiqamətində planlamalar edirdi. Belə bir qarışıq stiuasiyada tərəflərin uyğun gəlməyən siyasəti və uzlaşmayan maraqları onları iki fərqli gücün yanında olmağa vadar edirdi. Dövri vəziyyətə baxaq və kiçik bir dəyərləndirmə aparaq. M.Kamal paşanın köməkçilərindən Hüsrev bəy Gerede 7 iyun 1919-cu il tarixində Havzadan K.Qarabəkir paşaya xüsusi bir məktub göndərdi. Hüsrev bəy məktubunda – düşmənlərə qarşı mübarizəni uğurla aparmaq üçün ruslardan silah-sursat alınmasını, bu məqsədlə iki ölkə arasında birbaşa sərhədin vacibliyini qeyd edir və bunun gerçəkləşməsini bolşeviklərin Qafqazı işğal etməsi ilə baş tutacağını bildirir(7,66). M.Kamalın rəhbərliyi ilə başlayan Türkiyə istiqlal mücadiləsinin Qərb güclərinə qarşı bolşeviklərlə işbirliyi məsələsi məcburiyyətdən, çarəsizlikdən doğan bir məsələ idi. Bunun əksi olaraq Azərbaycan Cümhuriyyəti rəhbərliyi də Qərb ilə əlaqələri möykəmləndirməkdə və şimaldan gələcək təhlükələrə qarşı onların dəstəyindən yararlanmaqda maraqlı idi. 22 noyabr 1919-cu il tarixində Tiflisdə Müttəfiqlərin baş komissarının ofisində Azərbaycanın Baş naziri Nəsib bəy Yusifbəyli ilə Polkovnik Rianın danışıqlarının stenoqramı bunu əsaslı şəkildə ifadə edir. Yusifbəyli öz arqumentlərində Polkovnik Rianı narahat edən məqamlara aydınlıq gətirməklə Qərb güclərinin tam dəstəyini almağı qarşıya məqsəd qoymuşdur(8,20-27).

Azərbaycan Cümhuriyyəti tərəfi diplomatik manevrlərində Müttəfiqlərin diqqətinə çatdırırdı ki, Türkiyənin istiqlaliyyəti uğrunda mücadiləyə qalxmış qüvvələrlə yaxınlığı yoxdur və dəstək vermək fikrində deyil. Amma bunun əksi olaraq gizli şəkildə dəstək olmaqda maraqlı idi və dəstəyini də səmimiyyətlə ifadə etmişdi. Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi Azərbaycan Cümhuriyyəti hökümətі Mustafa Kamalın rəhbərlik etdiyi Anadolu hərakatına maliyyə dəstəyi təsdiqlənmiş və bir neçə mənbə və sənəddə öz əksini tapmış faktdır. Azərbaycanın İstanbuldakı sabiq konsulu Məhəmməd Haşim bəy TBMM hökümətі Xariciyyə Vəkalətinin İstanbuldakı nümayəndəsi Adnan bəyə etdiyi 11 fevral 1923-cü il tarixli müraciətində Azərbaycan Hökümətinin Anadolu hərakatına göndərdiyi 1,4 milyon frank yardımın Ankaraya göndərilməsi ilə bağlı yazırdı:

***‘Milli hökümət adına sabiq Azərbaycan höküməti rəisi tərəfindən göndərilən 1,4 milyon frankı tam şəkildə qoruyaraq Damad Fərid zamanı kimi müdhiş bir dövrdə Ankaraya göndərdim. Sonradan bu məbləğin də Hilal-i Əhmər vasitəsi ilə Ankaraya Mustafa Kamal paşa həzrətlərinin adına göndərilməsinə nail oldum’(9, 290).***

> ***Azərbaycan Cümhuriyyəti tərəfi diplomatik manevrlərində Müttəfiqlərin diqqətinə çatdırırdı ki, Türkiyənin istiqlaliyyəti uğrunda mücadiləyə qalxmış qüvvələrlə yaxınlığı yoxdur və dəstək vermək fikrində deyil. Amma bunun əksi olaraq gizli şəkildə dəstək olmaqda maraqlı idi və dəstəyini də səmimiyyətlə ifadə etmişdi. Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi Azərbaycan Cümhuriyyəti hökümətі Mustafa Kamalın rəhbərlik etdiyi Anadolu hərakatına maliyyə dəstəyi təsdiqlənmiş və bir neçə mənbə və sənəddə öz əksini tapmış faktdır***

Azərbaycan Cümhuriyyəti tərəfi zərrə qədər olsun Anadolu hərakatına xələl gətirəcək, onun ziddinə mövqey ifadə etməmişdi. Amma o dönəm K.Qarabəkir paşa tərəfindən təlimatlandırılaraq Azərbaycan gəlmiş müxtəlif heyət və hərbi simaların fəaliyyəti Azərbaycan Cümhuriyyəti üçün heçdə xeyirli nəticələr doğurmadı. K.Qarabəkir paşa tərəfindən təlimatlandırılan Ömər Lütfi bəy və Fuat Sabit bəyin Bakıda Hümmət partiyası vasitəsi ilə rus bolşeviklərlə əlaqə qurması əməkdaşlıq və birgə fəaliyyət obyektinin Azərbaycan Cümhuriyyəti hökümətі olmadığı fikrinin formalaşmasının əsasını qoydu.

Bu mövzu içərisində “Azərbaycan Milli Hökümətі Mustafa Kamal Paşa ilə əlaqə qura bilərdimi ?”(2,102) sualı altında dəyərləndirməni nə dərəcədə o dönəm üçün keçərli olduğunu və hansı səbəblərdən gerçəkləşmədiyini nəzərdən keçirək. Müəllif qeyd edir ki – “ ingilislərin Bakını tərk etdiyi 24 avqust 1919-cu ildən Cümhuriyyətin De-fakto olaraq tanındığı 11 yanvar 1920-yə qədər uzun bir dönəm var idi. Bu qədər vaxt da sadəcə De-fakto olaraq tanınmaq üçün çalışmaq yerinə, Anadoludakı milli hərakatla əlaqə yaradılmalı, milli ordu və dövlət təşkilatları gücləndirilməli və cümhuriyyətin istiqlalına qarşı olan firqələr və şəxslərə qarşı sərt tədbirlər alınmalı idi”.(2,103).

İlkin olaraq ona baxmaq lazımdır ki, Azərbaycan Cümhuriyyətinin Avropa dövlətləri, xüsusi olaraq Antanta təmsilçiləri tərəfindən tanınması fikri haradan doğub və bu nə qədər zəruri idi. Bu fikrin təməli İstanbulda Osmanlı imperiyasının Xarici İşlər naziri Mustafa Rəşid bəylə Əlimərdan bəy Topçubaşinin 1918-ci il 18 noyabr tarixli görüşünün stenoqramında açıq şəkildə görünür. Həmin görüşün stenoqramından:

M.Rəşid bəy: Əlahəzrət sədrəzəm kimi, mən də açıq şəkildə söyləyə bilərəm ki, sizə münasibətimiz yenə də tam səmimi olaraq qalır. Və çox istərdik ki, yeni Azərbaycan Cümhuriyyəti hər vasitə ilə inkişaf edib möhkəmlənsin. Bundan ötrü ölkənizin Avropa dövlətləri, ilk növbədə isə, təbii ki, Antanta təmsilçiləri tərəfindən tanınması son dərəcə zəruridir. Əsla şübhə etməyə bilərsiniz ki, bu məsələdə gücümüz çatan qədər hər şeyi etməyi özümüzə borc sayırıq. Ancaq gördüyünüz kimi, yaranmış şəraitdə bu, çox azdır. Siz özünüz, hökümətiniz indi bu sahədə daha fəal çalışmalısınız.

Ə.Topçubaşi: Zati-aliləri, ilk növbədə məhz hansı işlərdən başlamağı məsləhət bilirsiniz ? Bağışlayın ki, sizi narahat edirəm. Siyasət və diplomatiya sahəsində kifayət qədər təcrübəmiz yoxdur. İndiyə qədər belə işlərlə məşğul olmamışıq. Çünki çar hökümətі bizi bütün mümkün yollarla belə məsələlərdən aralı tuturdu.

***M.Rəşid bəy: Cənab səfir, gördüyünüz kimi, indi yalnız yeni yaranan dövlətlərin deyil, ümumiyyətlə, bütün dövlətlərin taleyi sülh konqresinin qərarlarından asılıdır.Konqres, bildiyimə görə, Parisdə keçiriləcək. Amma hələ dəqiq vaxtı məlum deyil. Lakin ora öz nümayəndə heyətinizi məhz indi göndərməlisiniz. Həmin heyət əvvəlcə Parisdə çalışmalı, sonra isə Londona getməlidir. Nümayəndə heyəti sayca böyük olmalı, Avropanı tanıyan, siyasət məsələlərindən başı çıxan, xarici dilləri bilən adamlardan təşkil edilməlidir.(5, 256-57).***

Gördündüyü kimi bu fikir Osmanlının Xarici İşlər naziri Mustafa Rəşid bəyin məsləhətləri əsasında müəyyən olunub. Əlimərdan bəy Topçubaşi mövcud geopolitik situasiya uyğun olaraq fəaliyyət proqamı müəyyən edib, hökümətі məlumatlandırıb və bunlara müvafiq addımlar atıb. Həmçinin Bakıda hökümətində fəaliyyəti Parisdəki nümayəndə heyətinin qərarları, mövqeyi və mütərəqqi addımları ilə harmoniya təşkil edirdi. Birmənalı şəkildə qurulmuş fəaliyyət Qərb dövlətlərində, xüsusi olaraq Antanta rəsmilərində Azərbaycan Cümhuriyyəti haqqında müsbət imic yaratmaq, onun müstəqil şəkildə yaşayacağına inam formalaşdırmaq idi.

Azərbaycan İstiqlaliyyətinin Antanta gücləri tərəfindən tanınması milli hökümətin xarici siyasətdə birinci ana məqsədi olub. Bu səbəbdən Mustafa Kamal ilə, Anadolu hərakatıyla yaxınlaşmaq və ya birgə fəaliyyət məsələsində çox ehtiyatlı davranırdı. Belə məqamda, ortaya qoyulmuş bütün əməli işlər uğursuzluğa düçar olardı. Mustafa Kamal Paşa və Anadolu hərakatının digər önəmli simaları isə Azərbaycan Cümhuriyyəti milli hökümətі ilə işləməkdə maraqlı deyildilər. Doktor Fuad Sabit bəyin K. Qarabəkir paşaya göndərdiyi raportdan aydın olur ki, Azərbaycan hökümətі açıq-açığına Anadolu hərakatına dəstək olmaq fikrində olmayıb, amma Nəsib bəy Yusifbəyli Rauf bəyin Bakıya gəlməsinin müvafiq olduğunu, silah və cəbhəxananın hansı miqdarda veriləcəyini, necə aparılacağını soruşub(7, 396).

1918-ci ildə Qafqaz İslam Ordusunun tərkibində Azərbaycan gəlmiş bir sıra yüksək rütbəli zabitlərin sonrakı dönəmdə fəaliyyəti də narahatlıq doğurur. Sürətlə dəyişən geopalitik vəziyyətdə siyasi hazırlığı zəif, siyasi prosesləri dərk etməyən, Azərbaycan Cümhuriyyətinin varlığına təhlükə olan müxtəlif qrupların təsir dairəsinə düşən bir sıra paşalar 2 ilin içərisində özləri üçün ilk öncə müsbət, sonra isə mənfi imic formalaşdırdılar. 1918-ci ildə xilaskarlar kimi ehtiram göstərilən bu simalar Azərbaycan Cümhuriyyətinin varlığına zərbə vurmağa çalışan qüvvələrin əsirinə çevrilirdilər. Heç şübhəsiz ki, yüksək hərbi peşakarlığı olan, bir sıra qələbələrə komandanlıq etmiş şücaətli bu paşalar dəyişən siyasi münasibətləri anlamaqda naşı və qeyri-peşakar idilər. Ümumiyyətcə o dönəmi anlamaq və əsl mənzərəni görmək üçün hesab edirəm ki, birinci və əsas mənbə Kazım Qarabəkir paşanın yazmış olduğu, Türkiyədə də bir müddət yasaqlanmış “İstiqlal Hərbimiz” adlı kitabıdır. Dövrü dəyərləndirmək üçün çox əhəmiyyətli mənbədir.

***Sovet Rusiyasının yardımlarına ehtiyac duyan Anadolu hərakatı liderlərinin bu yardımları Türkiyə üçün təmin etmək məqsədi ilə Bakıya və Moskvaya göndərdiyi nümayəndələr, həmçinin Azərbaycanda olan türk hərbiçiləri bolşeviklərin əlində bir alətə çevirərək ‘İngilispərəst” Azərbaycan hökümətini devirməkdə bolşeviklərə yaxından kömək etdilər. Məhz Azərbaycandakı Türkiyə nümayəndələrinin birbaşa iştirakı və fəal yardımı ilə Sovet Rusiyası 1920-ci ilin aprelində Azərbaycanın istilasını həyata keçirə bildi(9, 319-320).***

5-ci başlıq “Cümhuriyyətin işğalının daxili səbəbləri” adlanır. 23 ay mövcud olmuş Azərbaycan Cümhuriyyətinin mövcud olduğu dönəmdə ortaya qoyduğu əməli işlərlə edə bilmədikləri ayrı-ayrılıqda tədqiqat mövzusudur. Bir kitabın bir bölümü və ya bir məqalə ilə bunların hər hansınısa ortaya qoymaq hesab edirəm ki, kifayət deyil. Hərbi, siyasi, diplomatik, iqtisadi və digər sahələrdə əldə edilən uğurlar Azərbaycan Cümhuriyyətinin inkişafına nə qədər təkan verdisə, həyata keçirilə bilməyən işlər onun zəifləməsinə və sonda isə işğala məruz qalmasına səbəb oldu. İlk öncə ondan başlamaq istəyirəm ki, Azərbaycan Cümhuriyyətinin işğala məruz qalması çox gərgin geosiyasi bir vəziyyətdə baş vermişdir. Belə bir vəziyyət rahatlıqla Sovet Rusiyasının Azərbaycanı işğal etməsinə geniş imkanlar yaratmışdı. Azərbaycan Cümhuriyyətinin daxildə həyata keçirə bilmədiyi bir çox işlər işğala zəmin hazırladı və işğalçıların fəaliyyətini daha da rahatlaşdırdı. Mövzu içərisində işğalın daxili səbəbləri ilə bağlı müəllif yarımbaşlıqlarla onları izah edir. Həmin yarımbaşlıqlar bunlardır:

***1. İntizamlı güclü ordudan məhrum olması.***

***2. Milli Hökümət daxilində tam anlamı ilə idealoji-siyasi birliyin olmaması.***

***3. Təşkilatçılığın zəif olması.***

***4. Dövlətin daxili düşmənlərə qarşı sərt cəza tədbirlərinin görülməməsi.***

***6-cı başlıq “27 aprel hadisəsi: Könüllü birləşmə, təslimiyyət, yoxsa işğalmı ? adlanır. Müəllif 27 aprel 1920-ci ildə baş vermiş hadisəni təhlil edərək Azərbaycan Cümhuriyyətinin həmin günü işğala məruz qaldığını əsaslandırır.***

***Digər “Türkçülük-Turançılıq idrakı”və “Cümhuriyyət ziyalılarının Türk tarixi alqısı” adlı başlıqlarda isə müəllif Azərbaycanda bir sıra tarixi, idealoji və nəzəri məsələlərə nəzər salır.***

***1. Enis Şahin – “Trabzon ve Batum konferansları ve antlaşmaları(1917-1918)”, Ankara, 2002.***

***2. Oder Alizade “Türklüğün Azerbaycandakı mukadderatı”, İstanbul, 2020.***

***3. Əbülfəz Elçibəy ‘Bütov Azərbaycan Yolunda”, Bakı, 2004.***

***4. ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında(1919-1920-ci illər), Bakı, 2017.***

***5. Əlimərdan bəy Topçubaşov ‘Xalqımızın müstəqil yaşayacağına inanırdıq”, Bakı, 2018.***

***6. Əlimərdan bəy Topçubaşov “Doğma Azərbaycanın mənafeyini qoruyacağıq!”, Bakı, 2018.***

***7. Karabekir ‘İstiklal Harbimiz”, İstanbul, 2008.***

***8. Azərbaycan Xalq Cumhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Bakı, 2009-cu il.***

***9. Vasif Qafarov “Azərbaycan Türkiyə-Rusiya münasibətlərində(1918-1922),Bakı, 2020.***

